DİN

# MÜBARİZ KEŞİKDƏ

28 mart 2019-cu il
Cümə axşamı
№ 11 (3426)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK EDİB

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəliblər.

Bayram şənliyinin iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşılayıblar.

Prezident İlham Əliyev sakinlərlə söhbət edib.

Novruz şənliyinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirilib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada "Novruz" yarmarkası ilə tanış olublar.

Daha sonra dövlətimizin başçısı və xanımı İçərişəhərə gələrək burada "Bahar qalası" festivalı ilə tanış olublar.

Bahar qızı dövlətimizin başçısına bayram xonçası təqdim edib.





Ulu Dədə Qorqud xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayıb.

Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezident və xanımını bayram münasibətilə təbrik ediblər, dövlətimizin başçısı ilə yumurta döyüşdürüblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bahar qalası" festivalı çərçivəsində yarmarka ilə tanış olublar.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür ediblər.

Azərbaycan Prezidenti və xanımı Müasir İncəsənət Mərkəzində, Karvansarayda İçərişəhər sənətkarlarının əl işləri sərgisində də olublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə sakinlərlə çay süfrəsi arxasında söhbət ediblər.

"Səma" uşaq rəqs ansamblının çıxışını izləyən dövlətimizin başçısı və xanımı ansamblın üzvləri ilə xatirə şəkli çəkdiriblər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırıb.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VII QLOBAL BAKI FORUMUNUN AÇILIŞINDA İŞTİRAK EDİB

Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı Qlobal Forumun iştirakçıları ilə görüşüb.

Sonra birgə foto çəkdirilib.

Martın 16-dək davam edən VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edib. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən Foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşmışdılar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə edilib. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidenti İlham Əliyev Forumda nitq söyləyib.

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirilib.

Nizami Gəncəvinin "Xəmsə"sindən bir əsər dövlətimizin başçısına hədiyyə olaraq təqdim edilib.

Forum işini panel iclasları ilə davam etdirib.

*****

Martın 14-də VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilib.

Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

## AZƏRBAYCAN PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 20-də Qazaxıstan xalqının lideri, Təhlükəsizlik Şurasının sədri Nursultan Nazarbayevə telefonla zəng edib.

Dövlətimizin başçısı Nursultan Nazarbayevin prezidentlik fəaliyyəti dövründə Qazaxıstanın inkişafı, firavanlığı və əmin-amanlığının təmin olunması istiqamətində yorulmaz səylər göstərdiyini vurğulayıb, onun xalqımızın ümummilli lideri Heydər Əliyevlə dostluq münasibətlərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin əsasını qoyduğunu qeyd edib. Prezident İlham Əliyev Nursultan Nazarbayevə gələcək fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Nursultan Nazarbayev göstərilən diqqətə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Nursultan Nazarbayev Azərbaycan ilə Qazaxıstan arasında dostluq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 20-də Qazaxıstan Prezidenti vəzifəsində fəaliyyətə başlaması münasibətilə Kasım-Jomart Tokayevə telefonla zəng edib.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi Prezident vəzifəsində fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona Qazaxıstanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluqlarını bildirib, əlaqələrimizin gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

**Dövlətimizin başçısı Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

***Azərbaycan Prezidenti İlham Əliyev martın 26-da Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan "Bakmil" stansiyasında yaradılan şəraitlə tanış olub.***

***Dövlətimizin başçısı martın 13-də yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Martın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin VII Qlobal Bakı Forumunda iştirak edən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Albaniya Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç, Moldova Prezidenti İqor Dodon, Monteneqro Prezidenti Milo Cukanoviç, Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov və Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçal ilə görüşləri olub.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı martın 14-də İrlandiyanın milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Maykl Higginsə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Martın 15-də ölkəmizin rəhbəri Səudiyyə Ərəbistanı Krallığının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev martın 15-də ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı martın 15-də İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Azərbaycan-İran hökumətlərarası birgə komissiyasının həmsədri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri martın 15-də ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, BMT baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saksı qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev martın 16-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonu qəbul edib.**

❖❖❖❖❖

***Martın 16-da ölkəmizin rəhbəri Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının təltif olunması ilə bağlı sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev martın 16-da məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı martın 16-da Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falihi qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev martın 18-də milli bayram – Müstəqillik Günü münasibətilə Pakistan İslam Respublikasının, Tunis Respublikasının, Yunanıstan Respublikasının, Banqladeş Xalq Respublikasının dövlət rəhbərlərinə təbrik məktubları ünvanlayıb.**

## YENİ MEMORİAL ABİDƏ KOMPLEKSİ YARADILIB

Abidənin və məzarüstü lövhənin köhnəlməsi, onun müasir tələblərə cavab verməməsi nəzərə alınaraq, DQ rəhbərliyi yeni abidənin yaradılması təşəbbüsünü irəli sürüb. DİN təşəbbüsü dəstəkləyərək, müvafiq işlərin görülməsinə göstəriş verib. Bununla da Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılaraq, Daxili Qoşunların şəhid hərbi qulluqçularının qardaşlıq məzarı ilə bağlı yeni layihə icra olunub. Qardaşlıq məzarı üzərində əvvəlkindən öz möhtəşəm quruluşuna və memarlıq elementlərinə görə fərqlənən müasir memorial abidə kompleksi yaradılıb...

*Bax səh.2.*

## MİNNƏTDARLIQ

Xalqımızın milli-mənəvi dəyərlərini və adət-ənənələrini özündə yaşadan Novruz bayramı münasibətilə vətəndaşlarımızdan, o cümlədən ayrı-ayrı nazirlik, komitə və şirkətlərdən, idarə və müəssisələrdən, ictimai təşkilatlardan, habelə bir çox xarici dövlətlərin müvafiq qurumlarından Daxili İşlər Nazirliyi rəhbərliyinin ünvanına çoxsaylı məktub və teleqramlar daxil olmuşdur.

Təbriklərinə, səmimi sözlərinə və xoş arzularına görə onların hər birinə dərin minnətdarlığımızı bildiririk.

**DİN-in Mətbuat Xidməti**
*27 mart 2019-cu il.*

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

*Hörmətli həmkarlar!*

*Xalqımızın zəngin mənəvi aləmini əks etdirən, insanlarda yüksək əxlaqi keyfiyyətlər formalaşdıran Novruz bayramının dövlət səviyyəsində qeyd olunması ulu öndər Heydər Əliyevin çoxsaylı tarixi xidmətlərindən biri, milli-mənəvi dəyərlərimizə böyük qayğısının və ehtiramının bariz ifadəsidir. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin praqmatik dövlət siyasəti sayəsində hərtərəfli inkişaf edən, əhalinin rifah halı günbəgün yüksələn ölkəmizdə bu Novruz da əmin-amanlıq şəraitində, nikbin əhval-ruhiyyə ilə qarşılanır, böyük sevinc hissi ilə qeyd edilir.*

*Əminəm ki, xalqa, Vətənə, dövlətçiliyə sədaqətli xidməti möhtərəm Prezident tərəfindən hər zaman yüksək qiymətləndirilən daxili işlər orqanlarının əməkdaşları və hərbi qulluqçular quruculuq işlərinin və davamlı tərəqqinin mühüm şərtlərindən olan sabitliyin keşiyində bundan sonra da əzmlə dayanacaq, asayişin və təhlükəsizliyin təmin olunması, vətəndaşlarımızın qanuni mənafelərinin hüquqazidd əməllərdən müdafiəsi kimi ümdə vəzifələrin öhdəsindən layiqincə gələcəklər.*

*Novruz bayramı münasibətilə daxili işlər orqanlarının bütün şəxsi heyətini, həmçinin hörmətli veteranlarımızı, şəhid olmuş əməkdaşlarımızın və hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, bahar əhval-ruhiyyəsi, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram.*

*Bayramınız mübarək olsun!*

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının daxili işlər naziri,**
**general-polkovnik**
*18 mart 2019-cu il.*

# DİN-in MƏTBUAT XİDMƏTİNDƏN



**Hər il olduğu kimi, bu Novruz bayramı ərəfəsində də- martın 15-16-da daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin başçılığı ilə Nazirliyin nümayəndələri Sabirabadın Yeni Şəhriyar və Goranboyun Aşağı Ağcakənd qəsəbələrində müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşüblər.**

Nazir müavini doğma yurd yerlərindən didərgin düşmüş soydaşlarımızı qarşıdan gələn Bahar bayramı münasibətilə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun adından təbrik edib, ən xoş arzularını çatdırıb, onların qayğı və problemlərinə, müraciətlərinə hər zaman diqqətlə, həssaslıqla yanaşılmasının əsasının hələ ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladıb, hazırda bu siyasətin uğurla davam etdirildiyini, əhalinin sosial müdafiə cəhətdən ən zəif təbəqələrinin, xüsusən şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin, təqaüdçülərin həyat, məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində son aylar ölkə Prezidenti tərəfindən önəmli addımların atıldığını məmnunluqla vurğulayıb.

Polis general-leytenantı İsmət Əliyev sosial müdafiəyə ehtiyacı olan bu insanların həyat, məişət şəraitinin yaxşılaşdırılması üçün görülən tədbirlərdən, ordu quruculuğu, iqtisadi qüdrətimizin daha da yüksəldilməsi, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahələrində əldə olunmuş uğurlardan söz açıb.

Qaçqın və məcburi köçkünlər adından çıxış edənlər dövlət başçısının apardığı siyasət nəticəsində doğma torpaqlarına qayıdacaqlarına əmin olduqlarını, göstərilən daimi diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



Daxili işlər orqanları əməkdaşlarının könüllülük prinsipi əsasında topladıqları 70 min manat soydaşlarımıza təqdim olunub.

Görüşlərdə Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov və Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov iştirak ediblər.

*16 mart 2019-cu il.*

# YENİ MEMORİAL ABİDƏ KOMPLEKSİ YARADILIB

**Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə DİN Daxili Qoşunlarının yüzlərlə hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Şəhid hərbi qulluqçular respublikamızın paytaxtı və bölgələrindəki şəhidlər xiyabanları, habelə ailələrinin yaşadıqları ünvanların yaxınlığında yerləşən qəbiristanlıqlarda dəfn olunublar.**



Bakıda "Əbədi məşəl"in alovlandığı, dövlət ziyarət protokoluna daxil olan, tarixi məkan kimi tanınan Şəhidlər xiyabanında istiqlalımız və torpaqlarımızın toxunulmazlığı naminə həyatını qurban vermiş yüzlərlə şəhidimiz torpağa tapşırılıb. Burada yeganə qardaşlıq məzarı da mövcuddur ki, Daxili Qoşunların şəhid hərbi qulluqçularına aiddir. Belə ki, 1992-ci ilin iyul ayının 19-da Ağdərə rayonunun Aterk kəndinin (hazırda Kəlbəcər rayonunun Həsənriz kəndi, işğal altındadır) müdafiəsi uğrunda döyüşdə Daxili Qoşunların hissəsinin onlarla hərbi qulluqçusu cəsurluq göstərərək son nəfəsinədək vuruşub və həlak olub. Onların bir qisminin düşmən tərəfindən yandırılmış və torpağa gömülmüş meyitlərinin qalıqları döyüş gedən ərazi işğaldan azad edildikdən sonra paytaxta gətirilib. Meyitlərinin vəziyyəti onların çoxunun kimliyini müəyyən etməyə imkan verməyib. Beləliklə, Aterk (Həsənriz) şəhidlərinin meyitlərinin qalıqlarının qardaşlıq məzarında dəfn olunması qərara alınıb.

1992-ci ildə Şəhidlər xiyabanında Aterk (Həsənriz) şəhidlərinin dəfn mərasimi keçirilib. Bir neçə il sonra qardaşlıq məzarının üzərində 38 nəfər şəhidin adı həkk olunan abidə yaradılıb.

Sonrakı dövrdə aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, adları abidədə həkk edilən 38 nəfər hərbi qulluqçudan 2-si sağdır. Onlar düşmən tərəfindən əsir götürülüb və sonradan geri qaytarılıb. Beləliklə, abidənin yenilədirilməsi zərurəti yaranıb.

Abidənin və məzarüstü lövhənin köhnəlməsi, onun müasir tələblərə cavab verməməsi nəzərə alınaraq, DQ rəhbərliyi yeni abidənin yaradılması təşəbbüsünü irəli sürüb. DİN təşəbbüsü dəstəkləyərək, müvafiq işlərin görülməsinə göstəriş verib. Bununla da Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılaraq, Daxili Qoşunların şəhid hərbi qulluqçularının qardaşlıq məzarı ilə bağlı yeni layihə icra olunub. Qardaşlıq məzarı üzərində əvvəlkindən öz möhtəşəm quruluşu və memarlıq elementlərinə görə fərqlənən müasir memorial abidə kompleksi yaradılıb.

Layihənin müəllifi memar Orxan Abdullayevdir. O, bu günədək Türkiyədə və Azərbaycanda memarlıq, dizayn sahələri üzrə çalışıb.

Bu mühüm layihənin həyata keçirilməsi şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə xidmət edir və Daxili Qoşunların şərəfli döyüş ənənələrinin təbliği, cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün böyük əhəmiyyətə malikdir.

*Yalçın Abbasov*

**"...Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir".**

**Bu sözləri ümummilli lider Heydər Əliyev erməni şovinistlərinin xalqımıza qarşı həyata keçirdikləri soyqırımına münasibət bildirərkən deyib.**

Xalqların da taleyi insanlar kimi biri-birindən fərqlənir. Onların müqəddəratında müəyyən rol oynayan hadisələr tarixi salnaməyə yazılır, nəsildən-nəslə ötürülür. Əsrlər boyu başı müsibətlər çəkmiş Azərbaycan xalqı dövlət müstəqilliyinə qovuşduqdan sonra saxtalaşdırılmış tarixinin həqiqətlərini yazmağa müvəffəq olub. Bu tarixdə 31 mart-soyqırımı, türk dünyasının ən hüznlü günlərindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri qətliam nəinki Azərbaycanda, eləcə də bütün Qafqazda minlərlə soydaşımızın məhvi ilə nəticələndi.

Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin sərəncamında güclü silahlı birləşmələr vardı ki, onların da 70 faizi ermənilərdən təşkil olunmuşdu. 1918-ci il martın 31-də azərbaycanlılara qarşı Bakı şəhərində kütləvi qırğınlar başladı. Erməni millətçiləri digər yerlərdə də vəhşiliklər törədirdilər. 1920-ci ildə Zaqafqaziyanın sovetləşməsindən sonra Azərbaycanın bəzi əraziləri Ermənistanın

# TARİXİMİZ, FACİƏLƏRİMİZ, İBRƏT DƏRSLƏRİ

Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin və bununla yanaşı, erməni təcavüzünün əsasını qoydu. Və Türkmənçay müqaviləsinin bəzi maddələrinə əsasən, ermənilərin İran və Türkiyədən Zaqafqaziya köçürülməsi başlandı.

Çar Rusiyası Osmanlı imperiyasına qarşı yeni bir plasdarm hazırlamaq məqsədilə Cənubi Qafqaza və xüsusən ləğv edilmiş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində erməni dövləti yaratmağa çalışırdı. 1828-ci il 21 mart fərmanı ilə Azərbaycan ərazisində "erməni vilayəti" təşkil edildi. O dövrdən başlayaraq, istər Türkiyədə, istərsə də Azərbaycanda dinc əhaliyə qarşı gizli və açıq şəkildə soyqırım siyasəti həyata keçirilmişdir.

XX əsrin əvvəllərində isə öz tarixi torpaqlarında yaşayan azərbaycanlıların planlı surətdə qırmağa və qovmağa başladılar. 1905-ilin fevralında Bakı şəhərində başlayan SSRİ ərazisinə qatıldı. 1948-1953-cü illərdə SSRİ Nazirlər Sovetinin qərarı ilə minlərlə azərbaycanlı öz tarixi torpaqlarından çıxarıldı.

Azərbaycanlıların deportasiyasının son mərhələsi 1988-ci ildə başladı. 1992-ci ildə Xocalı soyqırımı törədildi.

Ümummilli liderimizin azərbaycanlıların soyqırımı haqqında 26 mart 1998-ci il fərmanı ilə xalqımıza qarşı törədilən soyqırımına ilk dəfə olaraq siyasi qiymət verildi. Bu mühüm tarixi sənəd baş verənlərin təhrif olunmuş şəkildə izahına son qoymaqla yanaşı xalqı daim ayıq-sayıq olmağa istiqamətləndirir, torpaqlarımıza təcavüz etmiş erməni qəsbkarlarının ideologiyasına, bədnam əməllərinə ən tutarlı hüquqi qiymət verir.

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

**Əlləri işdən soyumur təqaüdə çıxsalar da. İstər paytaxtımızda, istərsə də bölgələrdə keçirilən tədbirlərdə onlarla tez-tez görüşürük. Təcrübələrinə, məsləhətlərinə bu gün də ehtiyac var. Şəxsi heyətin xidməti və peşə hazırlığında bacarıqlarını əsirgəmirlər. Onlar hələ, üstəlik, antinarkotik təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə polis və müvafiq qurum əməkdaşları ilə birgə tədris müəssisələrində, gənclər kollektivlərində maarifləndirmə işləri aparırlar.**

# GÖRÜŞLƏRƏ MARAQ ÇOX OLUR

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov deyir ki, bu tədbirlərdə milli-mənəvi dəyərlərimizlə bağlı söhbətlər aparılır, tariximizə, yaxın keçmişimizə aid mövzulara xüsusi diqqət yetirilir. Yaxşı bilirlər ki, məktəb, valideyn və polis həmrəyliyi gəncliyimizi üzləşdiyi neqativ halların girdabına düşməkdən qoruyur, onu təhsilə, elmə, idmana təşviq edir.

Həmsöhbətim veteranlar şuralarının yerlərdə həyata keçirdikləri konkret tədbirlərdən danışır. Məlum olur ki, Nərimanov RPİ Veteranlar Şurasının üzvləri bu yaxınlarda rayondakı Humanitar Fənlər Gimnaziyasında "Narkomaniya ümumbəşəri bəladır" mövzusunda keçirilən görüşdə iştirak ediblər.

Polis veteranları ölkəmizdə dövlətin gənclər siyasətinin, onməli olduqlarını, vətənimizin tərəqqisi üçün çalışanların örnək sarıdan korluq çəkmədiklərini diqqətə çatdırırlar.

Ağdaş RPŞ Veteranlar Şurası üzvlərinin iştirakı ilə keçirilən maarifləndirici görüş rayondakı Peşə Məktəbində, "Gənc kadrlara hamilik işi-peşə hazırlığı" mövzusunda baş tutub. Çıxışlara göstərilən diqqət və qayğının daha da artdığını, Azərbaycanda idmanın inkişafının bütün dünya üçün nümunə olduğunu deyən istefada olan polis polkovniki F.Süleymanov əlavə də edir ki, veteranlar gənclərin, yeniyetmələrin respublikamızı dünyada tanıdan şəxslərdən nümunə götürədənlər gənclərin peşə vərdişlərinin artırılması, dövlətə və dövlətçiliyə sədaqət ruhunda söhbətlər aparıblar.

Bərdə rayonunun Əyricə kəndindəki tam orta məktəbdə gerçəkləşən tədbir də "Narkomaniya, dini radikalizm və erkən nikaha yox deyək" mövzusunda olub. Çıxışlarda narkomaniyanın yayılmasına, dini radikalizmə və erkən nikaha qarşı hamılıqla mübarizənin vacibliyi önə çəkilib, bu işdə pedaqoji kollektivlərin, valideynlərin üzərinə mühüm vəzifələrin düşdüyü vurğulanıb.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# RAZI QALDILAR...





Elimizin gözəl bayramı, minillik tariximizin yaddaşı, güzgüsü olan Novruzu bu il də layiqincə, milli birlik, həmrəylik içində keçirdik. Könüllərdə bayram ruhunu, həyatımızın bayram ovqatını qorumaq üçün daxili işlər orqanlarının əməkdaşları da gecəli-gündüzlü xidmətdəydilər.

Vətənimizə gələnlərə, bayram tonqallarımızın oduna qızınanlara təkcə süfrəmizi deyil, ürəyimizi də açdıq. Öz ölkələrinə könüllərində bizə olan sevgiylə, bir ömür boyu unudulmayacaq təəssüratla, bir aləm söz-söhbətlə dönənlərin təşəkkürü, alqışı hələ indidən sosial şəbəkələri "zəbt edib".

Daşkəsəndə də Novruz ab-havası vardı. Polis burda da öz işini layiqli davam etdirdi.

***RPŞ-nin növbətçisi, polis mayoru Araz Səmədov və köməkçi, polis baş serjantı Elçin Zamanov isə öz postlarından, necə deyərlər, hər yerə nəzarət edirdilər.***

***Post-Patrul Xidmətinin əməkdaşları - polis serjantları Mehdi Bağırov və Əmrəli Məmmədov da xidmət başında, insanlarla bir yerdəydilər.***

*Fotolar Üzeyirindir*

# HAMININ BƏLASI İLƏ HAMILIQLA MÜBARİZƏ

**Bahar ətirli, Novruz ab-havalı günlərdə Qubadlı RPŞ-nin əməkdaşları yenə gənclərlə görüşə gəlmişdilər. Məqsəd bahar kimi gəncliyimizə, gələcəyimizə uzanan bir xain əli də kəsmək idi.**

"Narkomaniya əsrin bəlasıdır" mövzusunda Qara İlyasov adına Qubadlı şəhər 1 saylı orta məktəbdə keçirilən tədbirdə çıxış edən Şöbə rəisi, polis polkovniki Bəhruz Cabbarov dedi ki, narkomaniya ilə şüarlarla yox, əməli işlə, ağılla mübarizə aparılmalıdır. Biz gənclərə narkomafiyaların onları necə tora saldıqlarını öyrətməliyik. Artıq tora düşəndən sonra ona "Narkomaniya pisdir!" deməyin mənası yoxdur. Son bir neçə ildə narkomaniyanın coğrafiyasına nəzər salsaq, görərik ki, bunun özü bir həyəcan siqnalıdır. Bəla ilə mübarizə üçün təklif cəmiyyətdən, sabahımızı düşünən insanlardan gəlsə




vasitələrdən biridir.

"Narkomaniya əsrin bəlasıdır", "Narkotiklərə yox deyirik", "Sağlam bədəndə sağlam ruh olar" devizi ilə məktəblərdə polisin təşkilatçılığı ilə keçirilən tədbirlərin özü də bir profilaktikadır". Bunu deyən Rayon Səhiyyə Şöbəsinin əməkdaşı Mətanət Həbibova narkomaniyanın genefonda zərərini, xəstəliyin müalicəsinin çox çətin olduğunu qeyd etdi.

Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haxverdiyev maarifləndirmənin vacibliyindən söhbət açdı. Dedi ki, bu bəla cəmiyyətin mənəvi, əxlaqi dəyərlərini sarsıdır, sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır, eləcə də cinayətkarlığın artmasına səbəb olur.

RPŞ-nin xidmət üzrə rəis müavini, polis polkovnik-leytenantı İlham Rəsulov, Narkotiklərlə Mübarizə Qrupunun baş əməliyyat müvəkkili, polis mayoru Vahid Kərimov və polis leytenantı Rauf Qələndərov profilaktik işlərin ailədən, sonralar məktəb dövründən aparılmasının vacibliyindən danışdılar.



də bu sahədə qətiyyətli mövqe, peşəkarlıq, əzmkarlıq nümayiş etdirən hüquq-mühafizə orqanları, eləcə də Azərbaycan Polisidir. DİN rəhbərliyinin göstərişi ilə narkomaniya, erkən nikah və dini radikalizm mövzusunda keçirilən maarifləndirmə tədbirlərində şagirdlərlə, yeniyetmələrlə yanaşı onların valideynlərinin də iştirakı hədəfimizə çatmağa kömək edir. Yəni məqsəd həm də ailədə pis vərdişlərə, narkomaniyaya düçar olmuşların elə valideynlər tərəfindən vaxtında aşkar olunmasına kömək etməkdir. Ailə, məktəb və polis vəhdəti təkcə "ağ ölüm"lə mübarizədə deyil, şagirdlərin, yeniyetmələrin sağlam, savadlı, vətənpərvər böyüməsini də şərtləndirir.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq Abbasov ölkəmizdə idmanın ümumilli hərakata çevrildiyinə, respublika və beynəlxalq səviyyəli tədbirlərdə gənclərimizin ümidverici çıxışlarının ilbəil artdığına, Azərbaycanın dünya və Avropa çempionatlarına ev sahibliyinə diqqət çəkərək bildirdi ki, dövlət siyasətinin prioritetlərindən olan bədən tərbiyəsi həm də zərərli vərdişlərin qarşısını almaq üçün əsas

Tədbirə yekun vuran məktəbin direktoru Hümbət Hümbətəliyev yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması istiqamətində keçirilən tədbirlərin önəmini, lakin gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün hələ görüləcək çox işlərin olduğunu vurğuladı.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı.

*H.Ziyadxanoğlu*

# QƏLƏBƏ ƏKS-HÜCUMLA QAZANILIR

**"Bu gün vətənimizdəki sabitliyi, ölkəmizin inkişafını, gənclərimizin qazandığı uğurları gözü götürməyənlər narkomaniyadan bir silah kimi istifadə edirlər. Sabitliyi poza bilməyən, günü-gündən qüdrətlənən dövlətimizin dayaqlarını sarsıtmağa gücü çatmayanlar bizi ən zəif yerimizdən**





**vurmaq, min illər boyu qoruduğumuz dəyərlərdən məhrum etmək istəyirlər. Bax, onları bu məkrli niyyətlər birləşdirir. Bu gün biz də silahlanmalıyıq. Əslində, məktəbimizdə keçirilən maarifləndirmə tədbirinin özü bir hücumdur. Bu, bizim birgə mübarizəmiz, birgə hücumumuzdur",-** deyən Sumqayıtdakı 20 nömrəli orta məktəbin direktoru Əkbər İsmayılov sonra qonaqları təqdim etdi.

Həkim-narkoloq Vüsal Cabbarov məktəblərdə bəzi şagirdlərin siqaretə qurşanmalarını ürəkağrısı ilə qeyd etdi. Dedi ki, orqanizmini nikotinlə zəhərləyən gənc öz sağlamlığını təhlükə altına atır və beləcə, daha pis, zərərli vərdişlərə meyl salır, iradəsinin zəifliyindən istifadə edənlər onu alətlərinə çevirirlər.

ŞPŞ Veteranlar Şurasının sədri Rustavan Əliyev polis veteranlarının qüvvələrindən daha səmərəli istifadənin, gəncləri örnək insanlarla, gözəl nümunələrlə tərbiyə etməyin vacibliyini vurğuladı.

Sumqayıt ŞPİ-nin rəis müavini, polis polkovnik-leytenantı Əli Abdullayev Lev Tolstoyun: "Mən dünyada iki böyük bədbəxtlik tanıyıram: bunlardan biri vicdan əzabı, o biri də sağalmaz xəstəlik olan narkomaniyadır" fikri ilə çıxışna başladı. O, narkomaniyanın insanın tədricən ölümünə səbəb olduğunu, daha doğrusu, insanın şüurlu olaraq özü-özünü ölümə məhkum etdiyini diqqətə çatdırdı, Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan, sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizənin kampaniya xarakterli deyil, davamlı siyasət olduğunu qeyd etdi.

Sonda şagirdləri narahat edən məsələlər ətrafında söhbət aparıldı, onlara narkomaniyanın zərərlərini əks etdirən bukletlər paylanıldı.

*H.Təmirov,*
*polis mayoru*

# "SARI GƏLİN"İN MÜŞAYƏTİ İLƏ...

**Azərbaycan həm də güclü idman ənənələri ilə tanınınr.** Çünki idman dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bütün bunların nəticəsində dünyanın və Avropanın idman mərkəzlərindən hesab olunan ölkəmiz yüksək təşkilatçılıq qabiliyyəti ilə hər kəsin diqqətini özünə cəlb etməyi bacarıb və hər dəfəsində ilklərə imza atıb. Təkcə belə möhtəşəm tədbirlərdən İlk Avropa Oyunlarının Bakıda keçirilməsini deyilənlərə sübutdur.



Bu günlərdə internet saytlarını izləyərkən "Azərbaycanın qadın idmançısı dünya gimnastikası tarixində ilkə imza atdı" sərlövhəli xəbərə rast gəldim. Yazı diqqətimi çəkdi: "Azərbaycanın qadın idmançısı Marina Nekrasova dünya gimnastikası tarixində ilk dəfə qapalı geyimdə çıxış edib. O, dünya kubokunun ikinci yarış günündə sərbəst hərəkətlərdə mübarizəyə başlayıb. Marina xüsusi hazırlanmış geyimdə "Sarı gəlin" mahnısının müşayəti ilə çıxış edib və 12,366 xal alıb." Məqalədə marağıma səbəb olan əsas məqam idmançımızın milli mədəniyyətimizlə incəsənəti sintez edərək çıxış etməsidir. O, bununla Azərbaycan idmanının, mədəniyyətinin, incəsənətinin tarixi ənənələrə söykəndiyini bir daha nümayiş etdirib.

*T.Əlizadə*

# HƏMİŞƏYAŞIL AZƏRBAYCAN ÜÇÜN

**Sağlığında vətənimizin füsünkar təbiətinin vurğunu olan, "Bir ağacı kəsən, sanki mənim bir qolumu kəsir",- deyən xalqımızın ümummilli liderin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, yaşıllaşdırmaya önəm vermişdir.**

Bu gün əkilən hər bir ağacla bərabər onun arzuları da boy atıb göyərir, vətənimiz başdan-başa cənnətə dönür. Regionlar, Bakımız günü-gündən gözəlləşir, yaşıl örtüyə bürünür.





"Sabitlik adası"nı həm də yaşıl cənnətə çevirmək üçün ölkə rəhbərimizin, Birinci vitse -prezident Mehriban Əliyevanın necə böyük sevgi ilə ağacəkmə kompaniyalarında, yaşıllaşdırmada həvəslə iştirakının hər birimiz şahidi olmuşuq. Təbiətin yazı qarşıladığı, torpağın oyandığı bu günlərdə "quru, boş ərazi qalmasın, ağac əkək, sabahı düşünək" devizi ilə həmkarlarımız da qollarını çırmalayıb ağac əkir, savab qazanırlar.

Xətai Rayon Mühafizə İdarəsinin əməkdaşları yenə də uzun illərin xeyirxah ənənəsinə sadiq qalıblar. Ətraf mühitin təmizliyi, yaşıllaşdırma, vətənimizin abad, çiçəklənən diyara çevrilməsi naminə bu nəcib işə həmkarlarımızın coşqu ilə qoşulması təbiətə sevginin, ulu öndərimizin ideallarına sadiqliyinin bariz nümunəsidir.

İdarənin həyətində və yaxın ərazidə ağac əkmək üçün şəxsi heyətin hamılıqla səfərbər olması, həm diqqətimizi çəkdi, həm də sevindirdi bizi.

"Ağac həyatın və sağlamlığın təbii sipəridir. Ulularımız əbəs yerə deməyiblər ki, əgər savab qazanmaq, sağlam olmaq istəyirsinizsə, ağac əkin. Çünki həyat üçün zəruri olan havanın təmizlənməsi, yağış yağması, iqlimin tənzimlənməsi, digər bütün canlıların qidalanması, böyüməsi ağacdan asılıdır. Əgər fikir vermisinizsə, yaşayış məskənləri salınanda, yaşayış binaları tikiləndə ilk növbədə həmin ərazilərin təbii landşaftına diqqət yetirilir, insanların sağlamlığı üçün nə dərəcədə əlverişli olması nəzərə alınır. İnanıram ki, bu əkdiyimiz ağaclar illər ötdükcə boy atacaq və bizlərdən xatirə kimi təbiətin yaşıl qoynunda baş-başa verəcəklər",- deyərək ilk ağac tingini yerə basdıran rəis müavini, polis polkovnik-leytenantı İlham Rzayev nəcib işin gələcəkdə də davamlı olacağını diqqətimizə çatdırdı.

Qeyd olundu ki, bu işdə məqsəd həm də əməkdaşlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etməkdir.

Tədbir zamanı 50-dən çox ting əkildi, 100-dən çox ağaca aqrotexniki qaydada qulluq göstərildi, budama və suvarma işləri aparıldı, qoruyucu dirəklər basdırıldı.

*T.Hafiz*



# SİLAHI DÜZ TUT, HƏDƏFİ NİŞAN AL!

**Martın 14-dən 16-dək daxili işlər orqanlarının hissə və bölmələri arasında atıcılıq üzrə çempionat keçirilib.** Yarışın məqsədi şəxsi heyətin atəş və peşə hazırlığının, döyüş ruhunun yüksəldilməsi, eləcə də gənclərdə vətənpərvəlik hisslərinin formalaşmasıdır.

Yarışda Polis Akademiyasını 5 kişi və 1 qadın əməkdaş təmsil edib. Güclülərin qarşılaşmasından qalib ayrılan komanda ümumilikdə 650 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Polis Akademiyası Hərbi kafedrasının rəisi, polis polkovniki Hacı Aslanov bu cür turnirlərin DİO əməkdaşlarının, hər bir kursantın və dinləyicinin silahdan istifadə etmə bacarığını daha da təkmilləşdirdiyini bildirdi.

*Ə.Teymur*

# MARAQ DÜNYASI

### OLİMPİYA ROBOTLARI

Tokioda 2020-ci ildə keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarının təşkilat komitəsi yarışlar zamanı istifadə ediləcək robotları ictimaiyyətə təqdim edib.

Oyunlar zamanı işi asanlaşdırmaq məqsədi daşıyan bu robotlar Yaponiya hökuməti, Tokio şəhər bələdiyyəsi və biznes şirkətləri tərəfindən yarışları daha yaddaqalan etmək üçün hazırlanıb. Onların iki müxtəlif istiqamətdə istifadə ediləcəyi bildirilir. "Toyota Motor" şirkətinin robotu səsli təlimatlardan istifadə edərək əlil arabalarında olan tamaşaçıların onlar üçün nəzərdə tutulan yerlərə hərəkət etməsinə kömək edəcək. Həmin robotlar nəqliyyat üçün nəzərdə tutulan robotlardan aldıqları şirələri də tamaşaçılara çatdıracaq. Bu zaman sifarişlərin planşetlərə yerləşdirilməsi nəzərdə tutulur. "Panasonic" şirkəti tərəfindən hazırlanan isə xidmət heyətinə ağır əşyaları qaldırmaqda kömək edəcək.

### 10 DİLİ ANLAYIR

"Mitsubishi Electric" şirkətinin tədqiqatçıları eyni anda 10 dili anlayan sistem hazırlayıblar.

Yeni sistemin həm turizm, həm də digər sahələrdə istifadə edilməsi nəzərdə tutulur. O, müxtəlif dilləri hər bir şəxsin səsinə və leksikonuna uyğun olaraq, başa düşmək üçün süni intellektdən istifadə edir.

### ÜZƏN TUNEL

Geniş əraziyə yayılmış buzlaqları, körfəz və dağları olan Norveçin qərb sahillərində 5,3 milyon nəfər yaşayır. Burada nəhayətsiz buz təbəqəsi ilə örtülmüş körfəzləri 1,1 kilometr məsafədə bərəyə yüklənmiş avtomobillə qət edərək cənubdakı Kristiansand və Trondheim şəhərlərinə çatmaq üçün 21 saat vaxt tələb olunur. Bu problemi həll etmək məqsədilə Norveç hökumətinin sifarişi ilə 40 milyard dollarlıq üzən tunel layihəsi hazırlanıb.

Hazırda layihənin tərkib hissəsi olan dünyada ən böyük sualtı restoranın tikintisi başa çatmaq üzrədir. Sonrakı mərhələdə körpülər və dənizin 30 metr dərinliyində 27 kilometr uzunluğunda üzən tunel tikiləcək. Norveç bu tikintinin tamamlanması ilə bənzər layihələri həyata keçirən Çin, Cənubi Koreya və İtaliyanı geridə qoyacaq.

Bu layihə üzrə tikinti işləri 2050-ci ildə başa çatdırılacaq. Xatırladaq ki, üzən tunel ideyasının tarixi qədimdir. Hələ 1882-ci ildə britaniyalı arxitektor Edvard Rid İngilis körfəzi ilə bu cür tunelin tikilməsi təklifini irəli sürüb. Tunelin "üzən" adlanmasına baxmayaraq, onun gövdəsi dənizin altında möhkəm kabellərlə bərkidiləcək.

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# GECƏ ZƏNGİ

**Kompyuterdən, smartfonlardan istifadə etməyən az adam tapılar. İlk dəfələrdən çox cəlbedici olan virtual dünyadan asıllığı yarananlar da var artıq. Texnologiyanın bu son nailiyyətindən süni istifadə etmək cəmiyyətdə müxtəlif problemlərə, ailə faciələrinə də səbəb olur.**

**Haqqında söhbət açmaq istədiyim qanlı hadisə də sosial şəbəkədən yanlış yararlanmağın nəticəsində törədilib.**

... İşdən gec gəlmişdi. Şam yeməyindən sonra televizorun qarşısına keçdi. Yorğunluqdan sevimli verlişini də izləyə bilmədi və elə qoltuqdaca yuxuya getdi.

Həyat yoldaşının telefonuna gələn mesajın səsinə ayılıb ətrafa boylandı:



*-Gecənin bu vaxtı kimdir?*

Qadın tələsik:

*-Qohumlardandı, sən yat,*-dedi.

Bu etinasız cavab Rəşadı daha da əsəbləşdirdi. "Bu vaxt nə qohum",-deyib telefonu onun əlindən aldı. Zənnində yanılmamışdı, yazı müəllifi qohum-filan deyildi. Aysel (şərti) onu sakitləşdirmək istədi:

*-Səni boş şeyə görə əsəbləşdirmək istəmirdim, inan, yazanın kim olduğunu bilmirəm...*

Mübahisə getdikcə qızışdı. Rəşad həyat yoldaşının telefonu qarışıq əlinə keçəni vurub-sındırdı, haray-həşir saldı. Birdən nə fikirləşdisə, qaynına zəng vurub onu evlərinə çağırdı. Çox keçmədi ki, qaynı gəlib söhbətə qarışdı.

*-Heydər, bu nə biabırçılıqdır, bacının etdiklərindən xəbərin var?*

*-Belə bir məsələnin olması mümkün deyil. Sən bir az sakitləş, görək, neynirik.*

*-Onda məsələ aydınlaşanacan bacını götür, apar...*

Rəşadın qərarında qəti olduğunu anlayan Heydər bu anlaşılmazlığa son qoymağın bircə yolu olmasını bildirdi və cəld hərəkətlə telefonu işlək hala gətirib, ismarıcı gələn şəxsə cavab yazdı: "Hara gəlim?"

Qadından ismarıc alan şəxs cavabı çox gözlətmədi:

*-Avtovağzaldayam, Bakıya gedirəm, tez gəl ...*

**Ətrafdakıların köməyi ilə yaralı gənci təcili tibbi maşınla xəstəxanaya çatdırsalar da onun həyatını xilas etmək mümkün olmadı. Bu cinayət barədə dərhal məlumat verildiyindən Lənkəran ŞRPŞ-nin rəisi, polis polkovniki İslam Hümbətovun rəhbərlik etdiyi əməliyyat-istintaq qrupu artıq hadisə yerini incələyirdi.**

**Çox keçmədi ki, rayonun digər hüquq-mühafizə orqanlarının əməkdaşları da gəldilər. Lazımi araşdırmalar aparıldı, şahidlər dindirildi, meyit müayinə olunmaq üçün Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Lənkəran Şəhər Şöbəsinə göndərildi. Tezliklə həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində ağır cinayəti törətməkdə şübhəli bilinən şəxs həbs olunaraq istintaqa təhvil verildi...**

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# HÖRMƏT VƏ EHTİRAM VARSA



İnsanlarla sıx ünsiyyətdə olan, üstəlik, gecə-gündüz bilmədən onların köməyinə yetişən, yeri gələndə başqasının həyatını qorumaq üçün özünü fəda edən peşələr arasında polis öndə gəlir. Və o yerdə ki, insanlar bu fədakarlığı, xidməti qiymətləndirirlər, orada qarşılıqlı hörmət, ehtiram da olur, bəd əməllərə qarşı qətiyyətli mübarizə daha səmərəli aparılır. Polis əməkdaşlarının peşəkarlığı, şəxsi keyfiyyətləri isə bu işdə həlledici amillərdəndir.

***Yevlax RPŞ-nin sahə müvəkkili, polis leytenantı Rəşad Adıgözəlov gənc olmasına baxmayaraq, üzərinə düşən vəzifənin məsuliyyətini, gərəkliliyini yaxşı bilir. Elə bunun nəticəsidir ki, həm rəhbərlik, həm də ərazidə yaşayan vətəndaşlar ondan razılıq edirlər.***

*Foto Üzeyir Muradovundur.*

# BAYRAM OVQATI, qələbə sevinci



**Bu günlərdə Şağan Olimpiya İdman Kompleksində "Alpaqut Turan Döyüş sənəti" üzrə V Azərbaycan çempionatı keçirilib.**

Çempionatda Polis Akademiyasının komandası 19 kursantla təmsil olunub. Qırx komanda və 400 nəfərə yaxın idmançı arasında polislərimiz 9 qızıl, 17 gümüş və 7 bürünc medal qazanıblar.

"Alpaqut"un Qurşaq sistemi üzrə 2-ci, Batur sistemi üzrə 3-cü yerin kubokuna layiq görülən idmançılarımızı akademiyanın Fiziki hazırlıq kafedrasının müəllimi, polis leytenantı, dəfələrlə dünya və Avropa çempionu Natiq Eminov hazırlayıb.

*Natiq Abdullayev*

# GƏNCLİKDƏN GƏLƏCƏYƏ

**Peyğəmbərimizin "Alimin mürəkkəbi şəhidin qanından üstündür" fikrinə söykənərək hələ yüz illər bundan öncə şeyx Nizaminin "Bağlı bir qapıya açar axtarsan, ancaq alimlərdə axtar, taparsan" kəlamı günümüzdə daha aktualdır. Müqəddəs "Qurani-Kərimin" ilk cümləsinin "əl-Fatihə (kitabı açan surəsi)" sözü ilə başlaması elmin Allah qatında ən yüksək mərtəbədə olmasının göstəricisidir.**

Ən müasir dünya texnologiyasına inteqrasiya yolunu tutan ölkəmizdə elmin inkişafı prioritetdir. Bu istiqamətdə atılan addımlar onu deməyə əsas verir ki, yaxın gələcəkdə qara qızılın beyin kapitalı ilə əvəzlənməsi öz bəhrəsini verəcək. Bunun artıq konkret nəticələri də var.

Dünyada elmin, texnologiyanın inkişafında Azərbaycan gənclərinin özünəməxsus rolu var. X sinif şagirdi Reyhan Camalovanın ixtirası bunun bariz nümunəsidir. İxtira qısa zaman kəsiyində bütün dünyaya səs saldı. Reyhan qızımız "Reynerci" startapının təsisçisidir. Qurğu yağış suyundan enerji istehsal edir. Reyhanın kəşfi bir neçə beynəlxalq sərginin qalibi olub.

Məlumat üçün bildirək ki, Reyhan Camalova "Sabahın alimləri" müsabiqəsinin qaliblərindəndir. Müsabiqə 2012-ci ildən etibarən, ölkə miqyasında riyaziyyat, fizika, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya, mühəndislik, kompyuter elmləri üzrə keçirilir.

Bu balaca qızın böyük ixtirası bir daha sübut edir ki, insan kapitalı çox mühüm amildir və Azərbaycanda bu istiqamətdə aparılan gənclər siyasəti düzgündür.

İnanırıq ki, yaxın gələcəkdə reyhanlarımızın sayı çoxalacaq, elmi kəşfləri, ixtiraları ilə də Azərbaycanımıza dünya ölkələrinin marağını daha da artıracaq.

Yeri gəlmişkən, bu yaxınlarda Polis Akademiyasının komandası 47 ali təhsil müəssisəsi təmsilçilərinin iştirak etdiyi V ümumrespublika bilik yarışında yüksək ballar toplayaraq, 3-cü yerə layiq görülüb. Azərbaycanın elmi irsini əhatə edən yarışda gələcəyin polis zabitləri bir daha bilik və bacarıqlarını nümayiş etdirərək həmyaşıdlarına örnək olmağı bacarıblar. Əminik ki, qazanılan uğurlar daha böyük nailiyyətlərə çevriləcək.

*T.Əlizadə,*
*polis kapitanı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ(KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

2019-cu il aprel ayının 15-də saat 8:00-da, Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən DİN-in Əlahiddə Çevik Polis Alayında, Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant (500 ştat) Post-Patrul Xidmətinin polis nəfəri (kiçik rəis heyəti) vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri, Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcək.

Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları:***
***(012)-590-97-52; (012)-590-92-14;***
***(012)-590-92-37; (012)-590-93-45.***

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**

# DÜNYAYA PƏNCƏRƏ




Rusiya Prezidenti Vladimir Putin yeni qanunu imzalayıb. O, dövlətlərarası axtarışa verilmiş təqsirləndirilən şəxslərin qiyabi həbs edilməsi barədə məhkəmə hökmü çıxarmağa imkan verəcək.

Qüvvədə olan qanunvericiliyə görə, təqsirləndirilən şəxsin özü iştirak etmədən barəsində həbs qətimkan tədbiri seçilməsi barədə məhkəmə qərarının qəbul edilməsinə yalnız beynəlxalq axtarışda olduğu halda icazə verilirdi. İmzalanmış yeni qanun təqsirləndirilən şəxsin nəinki beynəlxalq, hətta dövlətlərarası axtarışda olduğu halda da, onun iştirakı olmadan barəsində qərar qəbul etməyə imkan verir.

Sənəd şəxslərin dövlətlərarası axtarışı barədə MDB iştirakçısı olan ölkələrin 10 dekabr 2010-cu il tarixli müqaviləsinin reallaşdırılmasına yönəlib.

*****

***2018-ci ildə Şərqi və Cənub-Şərqi Asiyada hüquq-mühafizə orqanları tərəfindən 116 ton memfetamin müsadirə edilib. Bir il əvvəl bu göstərici 82 tona bərabər idi. Bu barədə BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin (UNODC) martın 11-də Banqkokda təqdim edilən hesabatında bildirilib.***

***Qeyd edilib ki, son 18 ildə regionda memfetamin xeyli məşhurlaşıb. Müsadirə edilən narkotikin həcminin artması və qiymətinin düşməsi 2018-ci ildə Şərqi və Cənub-Şərqi Asiyada bu maddənin ehtiyatlarının artdığını deməyə əsas verir.***

***Ötən il ən çox metamfetamin Tailandda müsadirə edilib - 515 milyon həb.***

*****

Ötən il Tokionun polis bölmələrinə 3 milyard 839 milyon yen (təqribən 34 milyon 586 min dollar) itmiş pul gətirilib. Bu, son 3 ilin ən yüksək rekordudur. Polisə gətirilən pullar itmiş pulların 45,7 faizini təşkil edib.

Polisə təhvil verilən pulların 2,82 milyard yeni həmin pulların sahiblərinə qaytarılıb. Qalan 1,6 milyard isə həmin pulları tapanlara verilib, 560 milyon yen tapanlar imtina etdiyinə görə, dövlət büdcəsinə keçirilib.

2018-ci ildə polis tərəfindən tapılan əşyalar barədə 4,14 milyon ərizə tərtib edilib.

*****

***2019-cu ilin fevral ayında Nyu-Yorkda qətllərin sayı ötən ilin fevral ayının müvafiq göstəricisi ilə müqayisədə xeyli artıb. Polis Departamentinin məlumatına görə, qətllərin sayı 50 faiz çoxalıb. Bu hadisələrin yarısı Bruklin rayonunda baş verib. Hesabatda deyilir ki, Nyu-Yorkda törədilmiş 51 qətldən 19-u məişət zəminində baş verib. Bu qətlləri törədən şəxslərin əllərindəki silahın bir qismi qanuni əsasla, qalan hissəsi qeyri-leqal olub.***

***Polis nümayəndələri onu da bildiriblər ki, milli nifrət zəminində cinayətlərin sayının artması müşahidə olunur. 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə belə cinayətlər 72 faiz çoxalıb.***

*N.Cavadov,*
*polis kapitanı*

# GÖRÜNƏN DAĞIN BƏLƏDÇİLƏRİ

❖Cibimdə yoxuydu! Ürəyimdən verdim.

❖Dost uğrunda ölmək asandı, lakin uğrunda ölünəcək dostu tapmaq çətindir.

**Nazim Hikmət**

❖Başqasını anlamaq istəyirsənsə, onun nə dediyini deyil, nə demədiyini eşit.

**Cübran**

❖Böyüklərin sözü sözlərin böyüyüdür.

**Hüseyn Hilmi İşıq**

❖Bir insanın nələr verəcəyi deyil, sənin üçün nələrdən keçəcəyi əhəmiyyətlidir.

**Hegel**

❖Bir seçim etmək məcburiyyətindəsinizsə, seçməmək də bir seçimdir.

**Vilyam Ceyms**

❖Baxdın ki, həyatının dadını çıxara bilmirsən, dadını qaçıranı həyatından çıxar.

**Bal Marli**

❖Bir adamı unutmağa çalışmaq daima onu xatırlamaq deməkdir.

**Jan de Labrüyer**

❖Bütün işlərin ən çətini onu başlamaqdır.

**Jan Jak Russo**

❖Dövləti maliyyə qıtlığı deyil, istedadlı şəxsiyyətlərin azlığı zəif salır.

**Volter**

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti iş yoldaşları Elçin Ələsgərova bibisi

**ZƏRİFƏ xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Mətbuat Xidmətinin rəis müavini Orxan Mansurzadəyə əzizi

**VÜQAR MAHMUDZADƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbəəsinin rəisi Zaur Hüseynov və şəxsi heyəti Orxan Mansurzadəyə əzizi

**VÜQAR MAHMUDZADƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:00